AQRAR TƏDQİQATLAR MƏRKƏZİ

Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi

# Kənd Təsərrüfatı və Ərzaq Məhsulları üzrə Dünya Bazarı Konyukturasına dair Qısa İcmal

**Avqust 2022**

# M ü n d ə r i c a t


FAO-nun qlobal ərzaq qiymətləri indeksinə dair hesabatı....2
Buğda üzrə dünya bazarı konyukturasına dair qısa icmal....3
Buğdanın Rusiya Federasiyasında qiyməti....6
Arpanın dünya bazarı qiymətinə dair qısa icmal....7
Düyünün dünya bazarı qiymətinə dair qısa icmal....8
Qarğıdalının dünya bazarı qiymətinə dair qısa icmal....9
Pambıq üzrə dünya bazarı konyukturasına dair qısa icmal....10
Xam ipəyin dünya bazarı qiymətinə dair qısa icmal....12
Quru baramanın dünya bazarı qiymətinə dair qısa icmal....13
Günəbaxan yağının Avropa bazarı qiymətinə dair qısa icmal....14
Zeytun yağının dünya bazarı qiymətinə dair qısa icmal....15
Çayın dünya bazarı qiymətinə dair qısa icmal....16
Şəkərin dünya bazarı qiymətinə dair qısa icmal....17
Soyanın dünya bazarı qiymətinə dair qısa icmal....18
Mal ətinin dünya bazarı qiymətinə dair qısa icmal....19
Qoyun ətinin Avropa bazarı qiymətinə dair qısa icmal....20
Donuz ətinin Avropa bazarı qiymətinə dair qısa icmal....21
Quş ətinin dünya bazarı qiymətinə dair qısa icmal....22
Südün dünya bazarı qiymətinə dair qısa icmal....23
Gübrənin dünya bazarı qiymətinə dair qısa icmal....25

# FAO-nun qlobal ərzaq qiymətləri indeksinə dair hesabatı

**(FAO-nun 2 Sentyabr 2022-ci il tarixli açıqlaması)**

***FAO-nun Ərzaq Qiymətləri İndeksində 2022-ci ilin avqust ayında beşinci ay ardıcıl olaraq enmə trendi davam etmişdir.***

- **Qlobal Ərzaq Qiyməti İndeksi** 2022-ci ilin avqust ayında orta hesabla 138.0 bənd təşkil edib, əvvəlki ay ilə müqayisədə 1.9% (2.7 bənd) az, ötən ilin avqust ayı ilə müqayisədə isə 7.9% (10.1 bənd) **çoxdur**.
- **Ət Məhsullarının Qiymət İndeksi** avqust ayında orta hesabla 122.7 bənd təşkil edib, əvvəlki ay ilə müqayisədə 1.5% (1.8 bənd) az, ötən ilin avqust ayı ilə müqayisədə isə 8.2% (9.3 bənd) **çoxdur.**
- **Süd Məhsullarının Qiymət İndeksi** avqust ayında orta hesabla 143.5 bənd təşkil edib, əvvəlki ay ilə müqayisədə 2.0% (3.0 bənd) az, ötən ilin avqust ayı ilə müqayisədə isə 23.5% (27.3 bənd) **çoxdur**.
- **Taxıl Qiyməti İndeksi** avqust ayında orta hesabla 145.2 bənd təşkil edib, əvvəlki ay ilə müqayisədə 1.4% (2.0 bənd) az, ötən ilin avqust ayı ilə müqayisədə isə 11.4% (14.8 bənd) **çoxdur**.
- **Bitki Yağlarının Qiymət İndeksi** avqust ayında orta hesabla 163.3 bənd təşkil edib, əvvəlki ay ilə müqayisədə 3.3% (5.5 bənd), ötən ilin avqust ayı ilə müqayisədə isə 1.5% (2.5 bənd) **azdır**.
- **Şəkər Məhsullarının Qiymət İndeksi** avqust ayında orta hesabla 110.4 bənd təşkil edib, əvvəlki ay ilə müqayisədə 2.1% (2.4 bənd), ötən ilin avqust ayı ilə müqayisədə isə 8.4% (10.1 bənd) **azdır.**







**Mənbə:** http://www.fao.org/worldfoodsituation/foodpricesindex/en/

# Buğda üzrə dünya bazarı konyukturasına dair qısa icmal

***(ABŞ-ın Kənd Təsərrüfatı Nazirliyinin 12 Sentyabr 2022-ci il tarixli hesabatı əsasında hazırlanıb)***

- 2022/2023-cü məhsul ili üzrə qlobal buğda istehsalının rekord həddə 783.9 milyon ton olacağı proqnozlaşdırılır ki, bu da avqust ayının proqnozundan 4.3 milyon ton yüksəkdir.

**Dünya üzrə buğda bazarının tələb-təklif balansı, milyon ton**

| | | 2020/2021 | 2021/2022 | 2022/2023 |
|---|---|---|---|---|
| **TƏKLİF** | İlin əvvəlinə qalıq | 298 | 291 | 276 |
| | İstehsal | 775 | 780 | 784 |
| | **Cəmi təklif** | 1073 | 1070 | 1060 |
| **TİCARƏT** | İdxal / İxrac | 203 | 203 | 209 |
| **TƏLƏB** | Ərzaq və toxum | 624 | 634 | 636 |
| | Yem | 158 | 161 | 155 |
| | Cəmi istifadə | 782 | 795 | 791 |
| **İLİN SONUNA QALIQ** | | 291 | 276 | 269 |
| ***DÜNYA ÜZRƏ EHTİYATLARIN İSTEHLAKA NİSBƏTİ, %*** | | **37** | **35** | **34** |

**Mənbə:** www.uswheat.org

- Qlobal miqyasda məcmu təklifin həcm göstəricisinin 2021/2022-ci məhsul ili ilə müqayisədə 10 milyon ton azalaraq 1060 milyon ton olacağı təxmin edilir.

- Dünya buğda ticarətinin 2022/2023-cü məhsul ilində əvvəlki məhsul ili ilə müqayisədə 6 milyon ton artaraq 209 milyon ton olacağı proqnozlaşdırılır.

- 2021/2022-ci məhsul ilinə nəzərən cari məhsul ilində əsas buğda ixracatçısı olan ölkələrdə ixrac edilə bilən buğdanın həcmi 6 milyon ton artaraq 227 milyon ton olması proqnozlaşdırılır.

- 2021/2022-ci məhsul ilinə nəzərən 2022/2023-cü məhsul ilində dünyada buğda üzrə istehlakın 4 milyon ton azalaraq 791 milyon ton olacağı proqnozlaşdırılır.

- Proqnozlar reallaşacağı təqdirdə 2021/2022-ci məhsul ili ilə müqayisədə qlobal buğda ehtiyatlarının həcminin 2.60% azalaraq 269 milyon ton olacağı gözlənilir. Buna uyğun olaraq, dünya üzrə ehtiyatların istehlaka nisbəti göstəricisi 34.0% səviyyəsində olacaq.
- Ötən mövsümə nəzərən cari mövsümdə əsas buğda ixracatçısı olan ölkələrdə ilin əvvəlinə olan qalıq həcmi sabit olaraq 59.0 milyon ton, istehsal həcmi isə 2021/2022-ci məhsul ili ilə müqayisədə 8 milyon ton çox (392 milyon ton) olacağı gözlənilir. Bununla da, əsas ixracatçı ölkələr üzrə ümumi təklif səviyyəsi 8 milyon ton çox (451 milyon ton) olacaq.
- Çində ilin əvvəlinə olan qalıq həcminin 2021/2022-ci məhsul ili ilə müqayisədə 2 milyon ton azalaraq 142 milyon ton olması gözlənilir.
- Qara dəniz regionu ölkələri qrupu üzrə əvvəlki məhsul ilinə nəzərən 2022/2023-cü məhsul ilində istehsal həcminin 3.60% artaraq 138.9 milyon ton olması, ixracın isə 1.0% artaraq 62.7 milyon ton olması proqnozlaşdırılır.

**Qara dəniz ölkələri qrupu üzrə icmal**




**Qara dəniz ölkələri qrupu üzrə ixrac**




**Mənbə:** [www.uswheat.org](http://www.uswheat.org)

**Bu qrupda əsas istehsalçılar Rusiya, Ukrayna və Qazaxıstandır.**

- 2019-2021-ci illər ərzində buğdanın ABŞ bazarı qiymətində artım müşahidə olunmuşdur. 2021-ci ilin dördüncü rübündən başlayan artım, 2022-ci ilin ikinci rübündə də davam etmişdir. Aylıq müşahidə dövründə isə 2022-ci ilin mart ayından etibarən buğdanın qiymətində kəskin artım müşahidə edilmişdir. 2022-ci ilin avqust ayında buğdanın 1 tonunun ABŞ bazarında qiyməti əvvəlki ay ilə müqayisədə 6.32% artaraq 336.7 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.







**Mənbə:** https://www.worldbank.org/en/research/commodity-markets#1
https://www.igc.int/en/markets/marketinfo-prices.aspx

# Buğdanın Rusiya Federasiyasında qiyməti

- **Rusiyadan ixrac edilən buğdanın qiymətində 2021-ci ilin dekabr ayından etibarən azalma trendi müşahidə edilsə də, 2022-ci ilin mart ayında kəskin artmışdır. 2022-ci ilin avqust ayında 1 ton buğdanın ixrac qiyməti əvvəlki aya nisbətən 1.37% azalaraq 360.0 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**
- **2022-ci ilin avqust ayı ərzində buğdanın 1 tonunun Qara dəniz portlarında maksimum qiyməti 355.0 ABŞ dolları, minimum qiyməti 315.0 ABŞ dolları, Azov dənizi portlarında isə müvafiq olaraq 325.0 ABŞ dolları və 290.0 ABŞ dolları səviyyəsində olmuşdur.**




**Mənbə:** *http://www.fao.org/giews/food-prices/tool/public/#/dataset/domestic*




**Mənbə:** *https://www.apk-inform.com/en/prices*

# Arpanın dünya bazarı qiymətinə dair qısa icmal

- **Arpanın dünya bazar qiymətində 2021-ci ildə artım qeydə alınmışdır. 2022-ci ilin ikinci rübündə arpanın qiyməti ötən rüblə müqayisədə həm Avropa bazarında, həm də Qara dəniz limanında artmışdır. 2022-ci ilin mart ayından müşahidə edilən kəskin artım növbəti aylarda nisbətən sabitləşmişdir. 2022-ci ilin avqust ayında isə arpanın 1 tonunun qiyməti əvvəlki ay ilə müqayisədə Avropa bazarında 2.27% azalaraq 301.6 ABŞ dolları, Qara dəniz bazarında isə 8.34% azalaraq 292.1 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**







**Mənbə:** http://www.fao.org/giews/food-prices/tool/public/#/dataset/domestic

# Düyünün dünya bazarı qiymətinə dair qısa icmal

- Düyünün dünya bazarı qiyməti 2020-ci ildə əvvəlki ilə nisbətən artsa da 2021-ci ildə yenidən azalmışdır. 2022-ci ilin ikinci rübündə düyünün 1 tonunun dünya bazarı qiyməti əvvəlki rübə nisbətən 5.20% artaraq 426.5 ABŞ dolları təşkil etmişdir. Aylıq müşahidə dövründə isə 2021-ci ilin dekabr ayından başlayan artım 2022-ci ilin iyun ayında azalma ilə əvəzlənmişdir. 2022-ci ilin avqust ayında düyünün 1 tonunun dünya bazarı qiyməti əvvəlki ay ilə müqayisədə 1.70% artaraq 412.6 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.







**Mənbə*:*** https://www.worldbank.org/en/research/commodity-markets#1

## Qarğıdalının dünya bazarı qiymətinə dair qısa icmal

- **Qarğıdalının dünya bazarı qiymətində 2022-ci ilin birinci rübündə müşahidə olunan artım ikinci rübdə də davam etmişdir. Aylıq müşahidə dövründə isə qarğıdalının dünya bazarı qiymətində 2021-ci ilin oktyabr ayından 2022-ci ilin aprel ayınadək artım trendi müşahidə olunmuşdur. 2022-ci ilin avqust ayında qarğıdalının 1 tonunun dünya bazarı qiyməti əvvəlki ay ilə müqayisədə 10.26% azalaraq 289.8 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**







**Mənbə:** [https://www.worldbank.org/en/research/commodity-markets#1](https://www.worldbank.org/en/research/commodity-markets#1)

# Pambıq üzrə dünya bazarı konyukturasına dair qısa icmal

**Dünya üzrə pambıq balansına əsasən 2022/23-cü məhsul ilində pambıq istehsalı 2021/22-ci məhsul ili ilə müqayisədə 2.38% artaraq 25.8 milyon ton olacağı proqnozlaşdırılır.**

**Cədvəl 1. Dünya üzrə pambıq balansı (*Çin də daxil olmaqla*), milyon ton**

| | 2018/2019 | 2019/2020 | 2020/2021 | 2021/2022 | 2022/2023 Avqust | 2022/2023 Sentyabr |
|---|---|---|---|---|---|---|
| **İlin əvvəlinə qalıq** | 18.0 | 17.9 | 21.6 | 19.3 | 18.4 | 18.5 |
| **İstehsal** | 25.7 | 26.1 | 24.2 | 25.2 | 25.5 | 25.8 |
| **Təklif** | 43.8 | 44.0 | 45.8 | 44.4 | 43.9 | 44.2 |
| **Fabrik istehlakı** | 26.1 | 22.4 | 26.6 | 26.0 | 25.9 | 25.8 |
| ***İlin sonuna qalıq*** | 17.9 | 21.6 | 19.3 | 18.5 | 18.0 | 18.5 |
| ***Qalıq/İstehlak nisbəti*** | *68.7%* | *96.1%* | *72.5%* | *71.0%* | *69.5%* | *71.4%* |

**Cədvəl 2. Çinin pambıq balansı, milyon ton**

| | 2019/20 | 2020/21 | 2021/22 | 2022/23 Sentyabr |
|---|---|---|---|---|
| **İlin əvvəlinə qalıq** | 7.8 | 8.0 | 8.5 | 8.0 |
| **İstehsal** | 5.9 | 6.4 | 5.9 | 6.1 |
| **Təklif** | 15.3 | 17.3 | 16.1 | 16.1 |
| **Fabrik istehlakı** | 7.2 | 8.7 | 8.1 | 8.2 |
| ***İlin sonuna qalıq*** | 8.0 | 8.5 | 8.0 | 7.9 |
| ***İstehlak*** | 7.2 | 8.7 | 8.1 | 8.2 |
| ***Qalıq/İstehlak nisbəti*** | *111.3%* | *98.1%* | *99.6%* | *97.0%* |

**Cədvəl 3. Çin daxil olmadan dünya pambıq balansı, milyon ton**

| | 2019/20 | 2020/21 | 2021/22 | 2022/23 Sentyabr |
|---|---|---|---|---|
| **İlin əvvəlinə qalıq** | 10.2 | 13.5 | 10.7 | 10.4 |
| **İstehsal** | 20.2 | 17.8 | 19.3 | 19.7 |
| **Təklif** | 30.4 | 31.3 | 30.1 | 30.1 |
| **Fabrik istehlakı** | 15.2 | 17.9 | 18.0 | 17.7 |
| ***İlin sonuna qalıq*** | 13.5 | 10.7 | 10.4 | 10.5 |
| ***İstehlak*** | 16.8 | 20.7 | 19.7 | 19.6 |
| ***Qalıq/İstehlak nisbəti*** | *80.5%* | *51.8%* | *53.0%* | *53.6%* |

**Mənbə**: *https://www.cottoninc.com/market-data/monthly-economic-newsletter/*

➢ **2020-ci ildə pambığın dünya bazarı qiymətində 2019-cu ilə nisbətən azalma müşahidə olunsa da, 2021-ci ildə yenidən artmışdır. 2022-ci ilin ikinci rübündə pambığın 1 kiloqramının dünya bazar qiyməti əvvəlki rübə nisbətən 15.23% artaraq 3.48 ABŞ dolları olmuşdur. Aylıq müşahidə dövründə pambığın dünya bazar qiymətindəki ümumi artım tendensiyası 2022-ci ilin iyun ayından etibarən azalma ilə əvəz olunmuşdur. 2022-ci ilin avqust ayında pambığın 1 kiloqramının dünya bazar qiyməti əvvəlki ay ilə müqayisədə 5.19% azalaraq 2.74 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**







**Mənbə:** *https://www.worldbank.org/en/research/commodity-markets#1*

# Xam ipəyin dünya bazarı qiymətinə dair qısa icmal

- **2021-ci ildə dünya bazarında xam ipəyin qiyməti əvvəlki ilə nisbətən kəskin artmışdır. 2022-ci ilin ikinci rübündə isə qiymət əvvəlki rüblə müqayisədə 13.65% azalaraq 60.39 min ABŞ dollarına bərabər olmuşdur. Aylıq trenddə isə 2022-ci ilin mart-may aylarında müşahidə edilən azalma iyun ayından etibarən artım ilə əvəzlənmişdir. 2022-ci ilin avqust ayında 1 ton xam ipəyin qiyməti əvvəlki aya nisbətən 1.04% azalaraq 64.43 min ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**







**Mənbə:** http://www.sunsirs.com/uk/sdetail-month--.html

# Quru baramanın dünya bazarı qiymətinə dair qısa icmal

- **2021-ci ildə dünya bazarında quru baramanın qiyməti əvvəlki ilə nisbətən kəskin artmışdır. 2022-ci ilin ikinci rübündə qiymət əvvəlki rübə nisbətən 12.08% azalaraq 19.94 min ABŞ dolları olmuşdur. Aylıq trenddə isə 2022-ci ilin mart-may aylarında müşahidə edilən azalma iyun ayından etibarən artım ilə əvəzlənmişdir. 2022-ci ilin avqust ayında 1 ton quru baramanın qiyməti əvvəlki aya nisbətən 1.86% artaraq 21.19 min ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**







**Mənbə:** http://www.sunsirs.com/uk/sdetail-month--.html

# Günəbaxan yağının Avropa bazarı qiymətinə dair qısa icmal

- **Avropa bazarında günəbaxan yağının qiymətində 2021-ci ildə kəskin artım müşahidə olunmuşdur. Belə ki, 2021-ci ildə günəbaxan yağının 1 tonunun Avropa bazarı qiyməti əvvəlki ilə nisbətən 69.81% artaraq 1,350.0 ABŞ dolları olmuşdur. Aylıq müşahidə dövründə isə 2022-ci ilin mart ayında günəbaxan yağının 1 tonunun qiyməti kəskin artmışdır. 2022-ci ilin avqust ayında isə əvvəlki aya nisbətən 2.25% azalaraq 1,522.0 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**







**Mənbə:** https://www.fas.usda.gov/data/oilseeds-world-markets-and-trade

# Zeytun yağının dünya bazarı qiymətinə dair qısa icmal

- 2020-ci ildə zeytun yağının dünya bazarı qiymətində azalma müşahidə olunsa da, 2021-ci ildə yenidən artmışdır. 2022-ci ilin ikinci rübündə əvvəlki rübə nisbətən zeytun yağının qiyməti İspaniya, Yunanıstan və İtaliya bazarında azalmışdır. Aylıq müşahidə dövründə isə 2021/22-ci illərdə qiymətlərdə kəskin dəyişiklik baş verməmişdir. 2022-ci ilin avqust ayında zeytun yağının 1 tonu İtaliya bazarında 4,555.0 ABŞ dolları, İspaniya bazarında 3,770.5 ABŞ dolları, Yunanıstan bazarında isə 3,694.6 ABŞ dollarına təklif olunur.







**Mənbə:** *https://www.internationaloliveoil.org/what-we-do/economic-affairs-promotion-unit/#prices*

# Çayın dünya bazarı qiymətinə dair qısa icmal

- **2019-2021-ci illər ərzində çayın dünya bazarı qiymətində artım trendi müşahidə olunmuşdur. Çayın 1 kiloqramının qiymətində 2022-ci ilin birinci rübündə müşahidə edilən azalma, ikinci rübdə yenidən artım ilə əvəz olunmuşdur. Aylıq müşahidə dövründə isə 2022-ci ilin aprel ayında olan kəskin artım növbəti aylarda nisbətən sabitləşmişdir. 2022-ci ilin avqust ayında çayın 1 kiloqramının dünya bazarı qiyməti əvvəlki ay ilə müqayisədə 0.90% artaraq 3.36 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**







**Mənbə:** [https://www.worldbank.org/en/research/commodity-markets#1](https://www.worldbank.org/en/research/commodity-markets#1)

# Şəkərin dünya bazarı qiymətinə dair qısa icmal

- **Şəkərin dünya bazarı qiyməti 2021-ci ildə əvvəlki ilə nisbətən kəskin artmışdır. 2022-ci ilin ikinci rübündə şəkərin dünya bazarında 1 kiloqramının qiyməti əvvəlki rüblə müqayisədə 4.88% artaraq 0.43 ABŞ dolları təşkil etmişdir. Aylıq müşahidə dövründə isə 2022-ci ilin fevral ayına qədər şəkərin qiymətində azalma trendi müşahidə olunmuşdur. 2022-ci ilin avqust ayında şəkərin 1 kiloqramının dünya bazar qiyməti əvvəlki ay ilə müqayisədə 2.50% azalaraq 0.39 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**







**Mənbə:** *https://www.worldbank.org/en/research/commodity-markets#1*

# Soyanın dünya bazarı qiymətinə dair qısa icmal

- **2019-2021-ci illər ərzində soyanın dünya bazarı qiymətində artım müşahidə olunmuşdur. 2021-ci ildə soyanın dünya bazarı qiyməti 2020-ci ilə nisbətdə 45.84% artaraq 593.3 ABŞ dolları/ton olmuşdur. 2022-ci ilin ikinci rübündə soyanın dünya bazarı qiyməti əvvəlki rüblə müqayisədə 9.70% artaraq 727.3 ABŞ dolları/ton olmuşdur. Aylıq müşahidə dövründə isə soyanın dünya bazarı qiymətində 2022-ci ilin yanvar ayından etibarən yüksək artım tendensiyası müşahidə edilir. 2022-ci ilin avqust ayında soyanın 1 tonunun qiyməti əvvəlki ay ilə müqayisədə 1.05% azalaraq 671.1 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**







**Mənbə:** *https://www.worldbank.org/en/research/commodity-markets#1*

# Mal ətinin dünya bazarı qiymətinə dair qısa icmal

- 2019-2021-ci illər ərzində mal ətinin dünya bazarı qiymətində artım müşahidə olunmuşdur. 2022-ci ilin ikinci rübündə mal ətinin 1 kiloqramının dünya bazarı qiyməti əvvəlki rübə nisbətən 1.30% azalaraq 6.06 ABŞ dolları olmuşdur. Aylıq müşahidə dövründə isə 2022-ci ilin aprel ayından başlayaraq mal ətinin qiymətində ümumi azalma trendi görünür. 2022-ci ilin avqust ayında mal ətinin 1 kiloqramının dünya bazarı qiyməti əvvəlki ay ilə müqayisədə 2.23% azalaraq 5.71 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.







**Mənbə:** https://www.worldbank.org/en/research/commodity-markets#1

# Qoyun ətinin Avropa bazarı qiymətinə dair qısa icmal

- **2019-2021-ci illərdə qoyun ətinin 1 kiloqramının Avropa bazarında qiyməti davamlı olaraq artaraq 7.99 ABŞ dolları səviyyəsində qərarlaşmışdır. 2022-ci ilin ikinci rübündə qoyun ətinin 1 kiloqramının Avropa bazarı qiyməti əvvəlki rüblə müqayisədə 0.13% azalaraq 7.88 ABŞ dollarına bərabər olmuşdur. Aylıq müşahidə dövründə isə son 1 il ərzində qoyun ətinin qiyməti mövsümi olaraq dəyişmişdir. 2022-ci ilin avqust ayında isə qoyun ətinin 1 kiloqramının Avropa bazarı qiyməti ötən ay ilə müqayisədə 3.66% azalaraq 7.16 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**







**Mənbə**: *https://ec.europa.eu/info/food-farming-fisheries/animals-and-animal-products/animal-products/lamb-mutton-and-goatmeat_en#marketmonitoring*

## Donuz ətinin Avropa bazarı qiymətinə dair qısa icmal

- **2020-ci ildə donuz ətinin Avropa bazarı qiymətində əvvəlki ilə nisbətən artım müşahidə olunsa da 2021-ci ildə yenidən azalmışdır. 2022-ci ilin ikinci rübündə donuz ətinin 1 kiloqramının qiyməti əvvəlki rüblə müqayisədə 24.07% artaraq 2.01 ABŞ dolları olmuşdur. Aylıq müşahidə dövründə isə 2022-ci ilin mart ayından etibarən donuz ətinin qiyməti kəskin artışdır. 2022-ci ilin avqust ayında donuz ətinin 1 kiloqramının Avropa bazarı qiyməti əvvəlki ay ilə müqayisədə 3.55% artaraq 2.04 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**







**Mənbə:** *https://ec.europa.eu/info/food-farming-fisheries/farming/facts-and-figures/markets/overviews/market-observatories/meat/pigmeat-statistics_en#trade*

# Quş ətinin dünya bazarı qiymətinə dair qısa icmal

- **2021-ci ildə quş ətinin dünya bazar qiymətində əvvəlki ilə nisbətən artım müşahidə olunmuşdur. 2022-ci ilin ikinci rübündə quş ətinin 1 kiloqramının dünya bazarı qiyməti əvvəlki rüblərdə müşahidə olunan artım trendinə uyğun olaraq bir qədər də yüksəlmişdir. Aylıq müşahidə dövründə isə 2022-ci ilin iyun ayından etibarən quş ətinin qiymətində azalma müşahidə edilir. 2022-ci ilin avqust ayında quş ətinin 1 kiloqramının dünya bazar qiyməti əvvəlki ay ilə müqayisədə 6.29% azalaraq 3.32 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**







**Mənbə**: https://www.worldbank.org/en/research/commodity-markets#1

# Südün dünya bazarı qiymətinə dair qısa icmal

- **2021-ci ildə ABŞ, Avropa İttifaqı və Yeni Zelandiyada süd xammalının bazar qiymətlərində ötən ilə nəzərən artım qeydə alınmışdır. 2022-ci ilin ikinci rübündə süd xammalının qiyməti əvvəlki rübə nisbətən ABŞ-da 8.71%, Avropa İttifaqında 6.36% artmış, Yeni Zelandiyada isə 6.06% azalmışdır. Aylıq trenddə isə 2022-ci ilin iyul ayında əvvəlki ay ilə müqayisədə süd xammalının 1 tonunun sahədən satış qiyməti ABŞ-da 4.31% azalaraq 567.9 ABŞ dollarına, Avropa İttifaqında 1.74% artaraq 520.7 ABŞ dollarına, Yeni Zelandiyada isə 4.88% azalaraq 436.4 ABŞ dollarına təklif olunmuşdur.**







**Mənbə**: https://www.clal.it/en/index.php

- 2021-ci ildə ABŞ-da və Avropa İttifaqında quru südün bazar qiymətində ötən illərə nisbətən artım qeydə alınmışdır. 2022-ci ilin ikinci rübündə quru südün qiyməti əvvəlki rübə nisbətən ABŞ bazarında 3.11%, Avropa bazarında isə 10.03% artmışdır. Aylıq trenddə isə 2022-ci ilin avqust ayında əvvəlki ay ilə müqayisədə quru südün 1 tonunun qiyməti ABŞ-da 1.32% artaraq 5,082.0 ABŞ dolları, Avropa İttifaqında isə 5.87% azalaraq 4,996.3 ABŞ dolları olmuşdur.







Mənbə: https://www.clal.it/en/index.php

# Gübrənin dünya bazarı qiymətinə dair qısa icmal

- **Gübrələrin dünya bazar qiyməti 2019-2020-ci illərdə nisbətən sabit qalsa da, 2021-ci ildə əvvəlki ilə nisbətən diamonium-fosfatın, kalsium-fosfatın, üçqat super-fosfatın və karbamidin qiymətində artım, potassium-xloridin qiymətində isə azalma trendi müşahidə olunmuşdur. Aylıq müşahidə dövründə isə 2021-ci ilin sentyabr ayından etibarən əksər gübrələrin qiyməti nəzərəçarpacaq dərəcədə artıb. 2022-ci ilin avqust ayında gübrələrin qiyməti əvvəlki ay ilə müqayisədə potassium-xloriddə və kalsium-fosfatda sabit qalmış, diamonium-fosfatda 4.42%, üçqat super-fosfatda 4.38%, karbamiddə isə 1.62% azalmışdır.**







**Mənbə:** https://www.worldbank.org/en/research/commodity-markets